**Təhsil millətin gələcəyidir!**

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

4 aprel 2026-cı il №12 (9167) www.muallim.edu.az muallim@media.edu.az

## Prezident Fərman imzaladı



### Azərbaycan Suriyada təhsil infrastrukturunun bərpasına dəstək göstərəcək

### Azərbaycan Mərakeş ilə elm və ali təhsil sahəsində əməkdaşlıq edəcək



# "Yeniləşən Azərbaycana yeni məktəb"

## Prezident İlham Əliyev Şamaxı Avropa liseyinin yeni binasının açılışında iştirak edib

Martın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyev Fondu tərəfindən inşa edilmiş Şamaxı Avropa liseyinin yeni binasının açılışında iştirak edib.

Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına liseydə yaradılmış şərait barədə məlumat verdi.

Bildirildi ki, Avropa liseyinin yerləşdiyi əvvəlki bina 1937-ci ildə inşa edilmişdi. Təhsil müəssisəsinin 1987-ci ildə yenidən qurulan binası isə ötən müddətdə istifadəyə yararsız hala düşdüyündən Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən yeni lisey binası inşa olunub.




## Aprel döyüşlərinin QƏHRƏMAN MÜƏLLİMLƏRİ



**Nuhin Əhmədov**

"Aprel döyüşlərində qazandığım şəxsi döyüş təcrübəsi dərslərimə birbaşa təsir edir. Mən çalışıram ki, gənclərə yalnız nəzəri bilik yox, eyni zamanda real döyüş şəraitində lazım olan bacarıqları da öyrədim. Şəxsi təcrübəmdən nümunələr gətirərək onlara vətənpərvərlik ruhu aşılayıram, çətin vəziyyətlərdə necə davranmalı olduqlarını izah edirəm. Bu da şagirdlərin dərsə marağını artırır və onların məsuliyyət hissini gücləndirir".

Bax səh.5

## Peşə təhsili: yeniliklər, artan dinamika



2022-2025-ci illər ərzində peşə təhsili üzrə 111 min dərslik və 64 proqram hazırlanıb

281 müəllim peşə təhsili üzrə beynəlxalq təlimə cəlb olunub

Azərbaycanda peşə təhsilində yaş müxtəlifliyi: 13-dən 78 yaşa qədər

11 peşə təhsili müəssisəsində adambaşına maliyyələşdirmə prinsipi tətbiq edilir

Peşə təhsili müəssisələrinə qəbul olanların sayı 42 faiz artıb

### Dünya miqyasında nümunəvi nəticə

Bax səh.4

### Müraciət sayının artması "Maarifçi"nin nüfuzunun yüksəldiyini göstərir

Bax səh.4

### Gələcəyin dərsliyi necə olmalıdır?

Bax səh.6

### Müasir texnologiya müəllimi əvəz edirmi?

Bax səh.7

# PREZİDENT İLHAM ƏLİYEV ŞAMAXI AVROPA LİSEYİNİN YENİ BİNASININ AÇILIŞINDA İŞTİRAK EDİB

**Martın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyev Fondu tərəfindən inşa edilmiş Şamaxı Avropa liseyinin yeni binasının açılışında iştirak edib.**

Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına liseydə yaradılmış şərait barədə məlumat verdi.

Bildirildi ki, Avropa liseyinin yerləşdiyi əvvəlki bina 1937-ci ildə inşa edilmişdi. Təhsil müəssisəsinin 1987-ci ildə yenidən qurulan binası isə ötən müddətdə istifadəyə yararsız hala düşdüyündən Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən yeni lisey binası inşa olunub.

Üç və dördmərtəbəli 7 korpusdan ibarət 1200 şagird yerlik bu təhsil müəssisəsi rayonun ən böyük məktəblərindəndir. Lisey zəruri mebel və avadanlıqla, fənn kabinetləri və laboratoriyalar isə əyani vəsaitlərlə təchiz edilib.

Burada 50-dən çox sinif otağı, fizika, kimya və biologiya laboratoriyaları, informatika və STEAM, hərbi təlim, tibb və əmək təlimi otaqları, kitabxana, yeməkxana, akt və idman zalları, həmçinin açıq idman meydançası yaradılıb.

Liseyin yeni binası Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən “Yeniləşən Azərbaycana yeni məktəb” Proqramı çərçivəsində inşa edilib.

Qeyd edək ki, Azərbaycanda təhsil sahəsinin inkişafı dövlət siyasətinin əsas prioritetlərindən biridir. Dövlət səviyyəsində bu istiqamətdə həyata keçirilən işlərə Heydər Əliyev Fondu da böyük töhfələr verir. Fondun “Yeniləşən Azərbaycana yeni məktəb” Proqramı çərçivəsində indiyədək ölkəmizdə 500-dən çox məktəb istifadəyə verilib.

Paytaxt Bakı ilə yanaşı, bölgələrdə bu cür layihələrin icrası ilk növbədə regionlarda yaşayan şagirdlərin yüksək səviyyədə təhsil almalarına, onların elmin sirlərinə daha dərindən yiyələnmələrinə hərtərəfli şərait yaradır. Bu, eyni zamanda, ölkəmizdə ümumilikdə təhsil sahəsinin inkişafını əyani şəkildə göstərir.











# Prezident Fərman imzaladı

## Azərbaycan Suriyada təhsil infrastrukturunun bərpasına dəstək göstərəcək

“Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Suriya Ərəb Respublikasının Təhsil Nazirliyi ilə İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı arasında Suriya Ərəb Respublikasında təhsil infrastrukturunun bərpası üzrə strateji tərəfdaşlıq haqqında Saziş” təsdiq edilib.

“Azərbaycan müəllimi” xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Fərman imzalayıb.

Fərmanda deyilir:

**1.** 2026-cı il fevralın 17-də Rabat şəhərində imzalanmış “Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Suriya Ərəb Respublikasının Təhsil Nazirliyi ilə İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı arasında Suriya Ərəb Respublikasında təhsil infrastrukturunun bərpası üzrə strateji tərəfdaşlıq haqqında Saziş” təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Suriya Ərəb Respublikası Hökumətinə və İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatına bildiriş göndərsin.

## Azərbaycan Mərakeş ilə elm və ali təhsil sahəsində əməkdaşlıq edəcək

“Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Mərakeş Krallığının Ali Təhsil, Elmi Tədqiqat və İnnovasiya Nazirliyi arasında elm və ali təhsil sahəsində əməkdaşlıq haqqında Saziş” təsdiq edilib.

“Azərbaycan müəllimi” xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Fərman imzalayıb.

Fərmanda deyilir:

**1.** 2026-cı il fevralın 16-da Rabat şəhərində imzalanmış “Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Mərakeş Krallığının Ali Təhsil, Elmi Tədqiqat və İnnovasiya Nazirliyi arasında elm və ali təhsil sahəsində əməkdaşlıq haqqında Saziş” təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Mərakeş Krallığı Hökumətinə bildiriş göndərsin.

# Azərbaycan universitet reytinqlərində top 100-də yer alıb

**2026-cı ilin “QS sahələr üzrə dünyanın ən yaxşı universitetlərinin reytinqi”ndə ilk dəfə Azərbaycanın 7 universiteti 22 sahə üzrə təmsil olunub. Beləliklə, cari ildə reytinqə daxil olan universitetlərimizin sayı təxminən 2 dəfə, təmsil olunduğumuz sahələrin sayı isə 4 dəfə artıb.**

Azərbaycanın 1 universiteti (Bakı Dövlət Universiteti) sözügedən reytinqdə ilk dəfə top 100-lüyə daxil olub.

Reytinqin cari buraxılışında Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti və Azərbaycan Dillər Universitetinin nəticələri daha da yaxşılaşıb. Azərbaycan Dövlət Neft və Sənaye Universiteti sözügedən reytinqdə bu il yenidən yer alıb. Digər 3 universitetimiz isə (Bakı Mühəndislik Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti və Azərbaycan Texniki Universiteti) ilk dəfə bu reytinqə daxil olub.

Qeyd edək ki, Azərbaycan müvafiq reytinqdə yer alan Cənubi Qafqaz regionunun yeganə ölkəsidir.

Cari ildə Azərbaycan universitetlərinin mövqeyinin faizlə dəyişmə dinamikası Türkiyə, Qazaxıstan və Özbəkistan ilə müqayisədə daha yüksəkdir.

Dünyanın 100-dən artıq ölkəsi üzrə 1900-dək ali təhsil müəssisəsinin və 21000-dən çox təhsil proqramının qiymətləndirildiyi bu reytinq 5 geniş sahəni və 55 fənni əhatə edir. Qiymətləndirmə zamanı 5 indikator (akademik nüfuz, işəgötürənlər arasında nüfuz, məqalə üzrə istinad sayı, H-indeks və beynəlxalq elmi əməkdaşlıq indeksi) nəzərə alınır.

# Nazir Şimali Kipr Türk Respublikasının Baş naziri ilə görüşüb

## Elm və təhsil sahəsində cari əməkdaşlıq, inkişaf perspektivləri müzakirə edilib

**Aprelin 3-də elm və təhsil naziri Emin Əmrullayev Şimali Kipr Türk Respublikasının Baş naziri Ünal Üstel ilə görüşüb.**

Görüş çərçivəsində Şimali Kipr Türk Respublikası ilə elm və təhsil sahəsində cari əməkdaşlıq, inkişaf perspektivləri müzakirə edilib.



# Elm və təhsil naziri Qusarda vətəndaşları qəbul edəcək

Elm və təhsil naziri Emin Əmrullayev 17 aprel tarixində Qusar şəhərində vətəndaşları qəbul edəcək.

Qəbulda Qusar, Quba və Xaçmaz sakinləri iştirak edə bilərlər.

Adları çəkilən rayonların sakinləri 10 aprel (saat 18:00-dək) tarixinədək Elm və Təhsil Nazirliyinin Çağrı Mərkəzinin 146 — 11 nömrəli telefonuna (yalnız iş günləri və saatları ərzində) zəng etməklə qəbula yazıla bilərlər. Bununla yanaşı, nazirliyin rəsmi saytının https://edu.gov.az/az/contact_us bölməsinə elektron formada və ya +994 51 206 78 48 nömrəsinə “WhatsApp” vasitəsilə müraciət göndərmək mümkündür.

Nəzərinizə çatdırırıq ki, qəbulda iştirak üçün qeydiyyat mütləqdir.

# Nazir müavini Şamaxıda vətəndaşları qəbul edəcək

Elm və təhsil nazirinin müavini Həsən Həsənli 8 aprel tarixində Şamaxı şəhərində vətəndaşları qəbul edəcək.

Qəbulda Şamaxı və Ağsu sakinləri iştirak edə bilərlər.

Adları çəkilən rayonların sakinləri 6 aprel (saat 18:00-dək) tarixinədək Elm və Təhsil Nazirliyinin Çağrı Mərkəzinin 146 — 11 nömrəli telefonuna (yalnız iş günləri və saatları ərzində) zəng etməklə qəbula yazıla bilərlər. Bununla yanaşı, nazirliyin rəsmi saytının https://edu.gov.az/az/contact_us bölməsinə elektron formada və ya +994 51 206 78 48 nömrəsinə “WhatsApp” vasitəsilə müraciət göndərmək mümkündür.

Nəzərinizə çatdırırıq ki, qəbulda iştirak üçün qeydiyyat mütləqdir.

# Nazir müavini Bərdə və Ağdam rayonlarında olub

## Səfər çərçivəsində Firudin Qurbanov vətəndaş qəbulu keçirib, təhsil müəssisəsində tədris şəraiti və təhsil prosesi ilə tanış olub, dərs prosesini izləyib, gənc müəllimlərlə görüşüb







**Aprelin 3-də elm və təhsil nazirinin müavini Firudin Qurbanov Bərdə və Ağdam rayonlarına səfər edib.**

Bərdə rayonuna səfər zamanı əvvəlcə Bərdə Rayon İcra Hakimiyyətinin başçısı Vidadi İsayev ilə birlikdə ulu öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri qoyulub.

Bərdə rayonuna səfər çərçivəsində Firudin Qurbanov vətəndaş qəbulu keçirib. Nazir müavini vətəndaşlar tərəfindən edilən hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli ilə bağlı müvafiq tapşırıqlar verib.

Daha sonra Ağdam rayonuna səfər edən nazir müavini Ayköl Manas adına Xıdırlı kənd tam orta ümumtəhsil məktəbini ziyarət edib, burada yaradılmış tədris şəraiti və təhsil prosesi ilə yaxından tanış olub. Nazir müavini dərs prosesini izləyib, müəllim və şagirdlərlə ünsiyyət quraraq tədrisin keyfiyyətinin artırılması, innovativ yanaşmaların tətbiqi və şagirdyönümlü təhsil mühitinin formalaşdırılması istiqamətində fikir mübadiləsi aparıb.

Ağdam rayonuna səfərin davamında Qarabağ Regional Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən ümumi təhsil müəssisələrində çalışan gənc müəllimlərlə görüş keçirilib. Görüşdə sözügedən region üzrə çalışan məktəb direktorları da iştirak ediblər. Görüş zamanı təhsilin keyfiyyətinin yüksəldilməsi, müəllimlərin peşəkar inkişafının dəstəklənməsi, müasir tədris metodlarının tətbiqi və innovativ yanaşmaların genişləndirilməsi məsələləri müzakirə olunub.

Firudin Qurbanov çıxışında gənc müəllimlərin təhsil sistemində aparılan islahatlarda mühüm rol oynadığını qeyd edib, onların təşəbbüskarlığının və innovativ yanaşmalarının dəstəklənməsinin vacibliyini vurğulayıb.

Görüş çərçivəsində iştirakçıların fikir və təklifləri dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb.

# Regionlarda müasir peşə tədrisi imkanları

## Nazir müavini Kənan Kərimzadə Lənkəran və Cəlilabad rayonlarında səfərdə olub

**Aprelin 2-də elm və təhsil nazirinin müavini Kənan Kərimzadə Lənkəran rayonuna səfər edib.**

Əvvəlcə Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov ilə birgə ulu öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Səfər çərçivəsində nazir müavini Kənan Kərimzadə Lənkəran şəhəri Azər Məhərrəmov adına 7 nömrəli tam orta ümumtəhsil məktəbində tədris prosesi və məktəbin infrastrukturu ilə yaxından tanış olub.

Məktəblə tanışlıq zamanı nazir müavini burada fəaliyyət göstərən STEAM Mərkəzinə də baxış keçirib, STEAM və “Rəqəmsal bacarıqlar” layihələri çərçivəsində dərs prosesində iştirak edib. Sözügedən layihələr çərçivəsində şagirdlərdə analitik düşünmə, problem həll etmə və texnoloji bacarıqların formalaşdırılması istiqamətində görülən işlər diqqətə çatdırılıb. Məktəbdə kiçik yaşlı məktəblilərin dron vasitəsilə hazırladıqları oyuna baxış keçirilib.

Daha sonra təhsil müəssisəsində fəaliyyət göstərən peşə təmayüllü siniflərlə tanışlıq zamanı şagirdlərin erkən ixtisas yönümlü bilik və bacarıqlar əldə etməsi üçün görülən işlər yüksək qiymətləndirilib. Qeyd olunub ki, bu siniflərin məzunlarının təxminən 80 faizi peşə təhsili müəssisələrinə qəbul olunur.

Səfər zamanı Lənkəran-Astara regionu üzrə ümumtəhsil məktəblərində fəaliyyət göstərən direktorlarla keçirilən görüşdə təhsil müəssisələrinin idarə olunmasında müasir yanaşmalar, liderlik bacarıqlarının inkişafı və məktəbdaxili idarəetmənin effektiv təşkili məsələləri ətrafında geniş müzakirələr aparılıb.





Kənan Kərimzadə çıxışında məktəb rəhbərlərinin təhsilin keyfiyyətinin yüksəldilməsində əsas aparıcı qüvvələrdən biri olduğunu qeyd edib, onların təşəbbüskarlığının, innovativ düşüncə tərzinin və dəyişikliklərə adaptasiya qabiliyyətinin vacibliyini vurğulayıb.

Görüş çərçivəsində region məktəblərində tədrisin keyfiyyət göstəricilərinin artırılması, müəllimlərin peşəkar inkişafının dəstəklənməsi, eləcə də məktəb-valideyn-ictimaiyyət əməkdaşlığının gücləndirilməsi istiqamətində fikir mübadiləsi aparılıb, iştirakçıların təklif və təşəbbüsləri dinlənilib.

Səfər zamanı vətəndaş qəbulu keçirən Kənan Kərimzadə müraciətləri dinləyib, səsləndirilən məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində müvafiq tapşırıqlar verib.

## Lənkəran və Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzlərinə infotur təşkil olunub

**Aprelin 3-də Lənkəran Dövlət Peşə Təhsil Mərkəzinə infotur təşkil olunub. İnfoturda elm və təhsil nazirinin müavini Kənan Kərimzadə, nazirliyin aidiyyəti struktur bölmələrinin əməkdaşları, Peşə Təhsili üzrə Dövlət Agentliyinin nümayəndələri, media qurumlarının rəhbərləri, təhsil mütəxəssisləri, jurnalist və blogerlər, eləcə də digər qonaqlar iştirak ediblər.**

İnfoturun əsas məqsədi peşə təhsili sahəsində həyata keçirilən islahatlar, regionlarda müasir peşə tədrisi imkanları və tələbələr üçün yaradılmış şəraitlə yaxından tanışlığın təmin edilməsidir.

İnfotur iştirakçıları əvvəlcə mərkəzin maddi-texniki bazası və tədris mühiti ilə tanış olublar. İnfotur iştirakçılarına məlumat verilib ki, müasir infrastrukturla təmin olunan mərkəzdə tədris, idman, yataqxana, kulinariya təlim korpusları, təlim-qonaq evi, əkinçilik və emalatxana laboratoriyaları, istixana, həmçinin avtotəmir və CNC (dəzgahların kompüterləşdirilmiş idarəetmə sistemi) emalatxanaları yaradılıb. Burada, eyni zamanda, informatika kabinetləri, müasir sinif otaqları, hərbi hazırlıq kabineti, kitabxana, 300 nəfərlik akt zalı və yeməkxana fəaliyyət göstərir. Ərazidə 53 nəfərlik yataqxana binası inşa edilib və yenidənqurmadan sonra korpusların sayı 7-yə çatdırılıb.

2025/2026-cı tədris ilində mərkəzdə 42 ixtisas üzrə 55 qrupda 962 tələbə təhsil alır. Müəssisədə turizm, kənd təsərrüfatı, sənaye, xidmət, İT texnologiyaları və alternativ enerji istiqamətləri üzrə kadr hazırlığı həyata keçirilir.






Mərkəzdə yeni maddi-texniki baza formalaşdırılandan sonra bir çox müasir ixtisaslar, o cümlədən elektrik və hibrid avtomobillərinin texniki qulluğu və təmiri üzrə texnik, kompüter şəbəkələri və şəbəkə inzibatçılığı, proqramla idarə edilən sənaye avadanlıqlarının texniki istismarı, kibertəhlükəsizlik, kompüter sistemlərində proqramlaşdırma, binaların tikintisi və istismarı, elektrik xətlərinin, günəş panellərinin quraşdırılması və təmiri üzrə mütəxəssis və texnik ixtisasları tədris olunur.

Burada tələbələrə ilk peşə, texniki peşə və yüksək texniki peşə təhsili pillələri üzrə biliklər verilir.

İnfoturun davamında müxtəlif ixtisas istiqamətləri üzrə təşkil olunmuş master-klasslar izlənilib. Bu çərçivədə bitkiçilik (istixana şəraitində təlim), açıq havada təşkil olunan dərs prosesi, sinifdaxili tədris nümunələri, hərbi və idman hazırlığı, eləcə də dərzi, bərbər, geyim üzrə dizayner, aşpaz və qənnadçı ixtisasları üzrə tələbələrin praktiki məşğələləri nümayiş etdirilib.

İştirakçılar tədris prosesinin praktiki yönümlülüyü, tələbələrin real iş mühitinə uyğun bacarıqlar qazanması və peşə təhsilinin müasir yanaşmalar əsasında təşkili ilə yerində tanış olmaq imkanı əldə ediblər.

İnfotur çərçivəsində elm və təhsil nazirinin müavini Kənan Kərimzadə tərəfindən “Regionlarda peşə təhsili: imkanlar və perspektivlər” mövzusunda təqdimat edilib. Təqdimatda peşə təhsilinin əlçatanlığının təmin edilməsi, yenilənən infrastruktur, peşə təhsilində tədrisin məzmunu və təhsilverənlərin peşəkar inkişafı, rəqəmsallaşan peşə təhsili, peşə təhsilində yeni maliyyələşmə modeli kimi yanaşmalar barədə ətraflı məlumat verilib.

***

Aprelin 3-də Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzinə infotur təşkil olunub. İnfoturda elm və təhsil nazirinin müavini Kənan Kərimzadə, nazirliyin aidiyyəti struktur bölmələrinin əməkdaşları, Peşə Təhsili üzrə Dövlət Agentliyinin nümayəndələri, media qurumlarının rəhbərləri, təhsil mütəxəssisləri, jurnalist və blogerlər, eləcə də digər qonaqlar iştirak ediblər.

İnfoturun məqsədi peşə təhsili sahəsində həyata keçirilən yeniliklərin, regionlarda müasir tədris imkanlarının və peşə təhsili alan tələbələr üçün yaradılmış şəraitin ictimaiyyətə daha geniş təqdim edilməsi, eləcə də peşə təhsilinin təşviqi, bu sahəyə marağın artırılmasından ibarətdir.

İnfotur çərçivəsində iştirakçılar mərkəzdə yaradılmış maddi-texniki baza, tədris emalatxanaları, laboratoriyalar, maldarlıq ferması ilə tanış olublar. Bu çərçivədə tələbələrin qazandıqları bacarıqlar, onların real iş mühitinə hazırlanması və peşə təhsilinin tətbiq yönümlü xarakteri əyani şəkildə nümayiş etdirilib.

Qeyd edilib ki, Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzi də regional inkişaf proqramından irəli gələrək bölgədə gənclərin peşə bacarıqlarına yiyələnməsinə yeni imkanlar yaradır. Ən müasir infrastruktur, maddi-texniki baza ilə təchiz olunan Mərkəzin ərazisində 25 sinif otağı, 3 laboratoriya, 13 emalatxana, informatika kabineti, STEAM Mərkəzi, praktiki məşğələ otağı, kitabxana, 252 yerlik akt zalı, 128 yerlik yeməkxana, idman zalları və meydançaları, avtotəmir binası, maldarlıq ferması və digər köməkçi binalar yerləşir.

Əlavə edilib ki, Peşə Təhsil Mərkəzində qənnadçı, şirniyyatçı, dərzi, kompüterlərin təmiri və xidməti üzrə texnik, mühasibat uçotu, qrafik dizayner, veb-dizayn və proqram təminatı, çilingər-santexnik, geniş profilli traktorçu-maşinist, elektrik montyoru, bərbər-vizajist-manikürçü, avtomobillərin təmiri çilingəri, avtomobil sürücüsü, mebel ustası istiqamətləri üzrə mütəxəssis hazırlığı aparılır. Müəssisədə kənd təsərrüfatı məhsullarının istehsalı üzrə fermer, bitkiçilik, heyvandarlıq və baytarlıq üzrə mütəxəssislər də hazırlanır.

İnfotur zamanı iştirakçıları maraqlandıran çoxsaylı suallar cavablandırılıb.

# Dünya miqyasında nümunəvi nəticə



## Azərbaycanın məktəbəqədər təhsil üzrə nailiyyətləri UNESCO-nun nüfuzlu beynəlxalq hesabatında

**UNESCO-nun mənzil-qərargahında yüksək səviyyəli təqdimatı keçirilən 2026-cı il Qlobal Təhsil Monitorinqi Hesabatı "2030-a geri sayım" adlı üçhissəli seriyanın ilk buraxılışı olaraq təhsildə əlçatanlıq və bərabərlik mövzusuna həsr edilib.**

Hesabatın məqsədi ölkələrin təhsil sahəsində irəliləyişini xüsusilə əlçatanlıq və bərabərlik baxımından qiymətləndirmək, bu nəticələrə təsir göstərən əsas amilləri təhlil etmək və 2030-cu ildən sonrakı təhsil gündəliyi üzrə müzakirələrə töhfə verməkdir.

Bu çərçivədə, hesabat son 25 il ərzində məktəbəqədər, ibtidai, orta və ali təhsil səviyyələri üzrə əlçatanlıq və bərabərlik göstəricilərini əhatə edir. Hesabatda, eyni zamanda qeyd olunan istiqamətlər üzrə ölkə nümunələri əsasında əldə olunan nəticələr daha geniş tədqiqatlarla əlaqələndirilir.

Bu kontekstdə, Azərbaycanın məktəbəqədər təhsil sahəsində əldə etdiyi nailiyyətlər nümunəvi ölkə təcrübələri sırasında yer alır. Hesabatda qeyd olunur ki, Azərbaycan Respublikası cəmi 5 il ərzində məktəbəhazırlıq qrupları ilə əhatə olunan 5 yaşlı uşaqların göstəricisini 25 faizdən 92 faizə yüksəltməklə dünya miqyasında nümunəvi nəticə nümayiş etdirib. Hesabatda həmçinin ölkəmizdə həyata keçirilən qanunvericilik islahatları, müəllim hazırlığı və məzmun sahələrində görülən işlər xüsusi vurğulanıb.

Xatırladaq ki, təqdimat mərasimində 30-dan çox ölkənin təhsil nazirləri, beynəlxalq təşkilatların rəhbərləri və təhsil üzrə ekspertlər iştirak ediblər.

# Müraciət sayının artması "Maarifçi"nin nüfuzunun yüksəldiyini göstərir



***Elm və Təhsil Nazirliyinin təşəbbüsü və Təhsilin İnkişafı Fondunun dəstəyi ilə həyata keçirilən IV "Maarifçi" tələbə-məzun təcrübə proqramı üzrə qeydiyyat prosesi başa çatıb. Proqramda iştirak üçün 5096 nəfər müraciət edib. Bu, indiyədək olan ən yüksək göstəricidir. İştirakçıları nə gözləyir? Proqram nə vaxt başlayacaq? Elm və Təhsil Nazirliyinin əməkdaşı, "Maarifçi" tələbə-məzun təcrübə proqramının işçi qrupunun katibi Tünzalə Vəliyeva "Azərbaycan müəllimi"nə müsahibəsində prosesin bundan sonrakı mərhələlərindən də danışıb.***

### Fəallıq əvvəlki illərlə müqayisədə yüksək səviyyədə qiymətləndirilir

*— "Maarifçi" tələbə-məzun təcrübə proqramına indiyədək ən yüksək sayda müraciətin qeydə alınması nə ilə əlaqədardır? Ötən müsahibənizdə qeydiyyat prosesini tətil dövrünə təsadüf etməsinin planlı olduğunu qeyd etmişdiniz. Maraqlıdır, ən yüksək müraciət sayı bununla əlaqədardır?*

— Haqlısınız, fəallıq indiyə qədərki proqramlardan çox oldu. IV "Maarifçi" tələbə-məzun təcrübə proqramına bu il ümumilikdə 5096 nəfər müraciət edib. Bu göstərici proqrama gənclər arasında artan maraqla izah edilə bilər. Təbii ki, qeydiyyat mərhələsinin müəyyən hissəsinin tətil dövrünə təsadüf etməsinin də təsiri var. Belə ki, tətil dövründə tələbə və məzunların vaxt imkanlarının daha geniş olması onların proqram barədə məlumatlanmasına və müraciət etməsinə müsbət təsir edib. Ümumilikdə fəallıq əvvəlki illərlə müqayisədə yüksək səviyyədə qiymətləndirilir.

*— Ümumiyyətlə, artım dinamikası hər proqramda müşahidə edilib…*

— Elədir, "Maarifçi" tələbə-məzun təcrübə proqramına maraq ildən-ilə artmaqdadır. Proqramın ilk dəfə keçirildiyi vaxtdan etibarən qeydiyyat sayında davamlı artım müşahidə olunur. Belə ki, I "Maarifçi" tələbə-məzun təcrübə proqramı üzrə 1958 nəfər tələbə və məzun qeydiyyatdan keçmişdir. II "Maarifçi" proqramında bu göstərici 2741 nəfərə, III proqramda isə 3542 nəfərə yüksəlmişdir. Cari ildə keçirilən IV "Maarifçi" tələbə-məzun təcrübə proqramına isə 5096 nəfər müraciət edib. Bu statistika göstərir ki, proqram gənclər arasında getdikcə daha geniş maraq doğurur və hər il müraciət edənlərin sayında əhəmiyyətli artım qeydə alınır. Xüsusilə IV proqram üzrə müraciət sayının əvvəlki illərlə müqayisədə nəzərəçarpacaq dərəcədə artması proqramın nüfuzunun yüksəldiyini və gənclərin təhsil sahəsində praktiki təcrübə qazanmağa olan marağının gücləndiyini göstərir.

### Müraciətçiləri hələ bir neçə seçim mərhələsi gözləyir

*— İştirakçıları bundan sonra nə gözləyir?*

— Qeydiyyat mərhələsi başa çatdıqdan sonra iştirakçıları bir neçə seçim mərhələsi gözləyir. Növbəti mərhələlərə müraciətlərin ilkin yoxlanılması, namizədlərin qiymətləndirilməsi və seçim prosesləri daxildir. Hər mərhələnin nəticələri ilə bağlı namizədlərə mərhələli şəkildə məlumat veriləcək.

*— Konkret hansı mərhələlər olacaq?*

— Namizədləri iki əsas seçim mərhələsi gözləyir. Əvvəlcə test imtahanında iştirak edəcəklər. Bu mərhələdə onların məntiqi düşünmə, analitik bacarıqları, davranış səriştələri, informasiya texnologiyaları, süni intellekt və ümumi dünyagörüşü üzrə bilikləri qiymətləndiriləcək. Bu mərhələni uğurla keçən namizədlər növbəti - müsahibə mərhələsinə dəvət olunacaqlar. Hər iki mərhələnin nəticələrinə əsasən ən yüksək nəticə göstərən namizədlər IV "Maarifçi" tələbə-məzun təcrübə proqramında iştirak etmək imkanı əldə edəcəklər.

*— IV "Maarifçi" təcrübəyə nə vaxt başlayır?*

— Seçim mərhələləri tamamlandıqdan sonra namizədlər qəbul nəticələri barədə məlumatlandırılacaqlar. IV "Maarifçi" tələbə-məzun təcrübə proqramının təcrübə mərhələsinin bu ilin yay aylarında başlanması planlaşdırılır. Dəqiq başlama tarixi və digər təşkilati məsələlər yekun seçim nəticələri elan olunduqdan sonra iştirakçılara təqdim ediləcək.

*— Bu il proqramın şərtlərində və ya tətbiq prosesində hər hansı dəyişiklik nəzərdə tutulurmu?*

— Cari ildə proqramın qəbul şərtlərində hər hansı dəyişiklik nəzərdə tutulmur. Əvvəlki illərdə olduğu kimi, ali təhsil müəssisələrinin IV kurs tələbələri, magistratura səviyyəsində təhsil alanlar və son üç il ərzində məzun olmuş şəxslər proqrama müraciət edə bilərlər.

### "Maarifçi" işə qəbul proqramı deyil, təcrübə proqramıdır

*— Təcrübə proqramına neçə nəfərin seçilməsi planlaşdırılır?*

— Təcrübə proqramına seçiləcək namizədlərin sayı əvvəlcədən aparılmış sorğu əsasında müəyyən olunur. Belə ki, Elm və Təhsil Nazirliyində, tabeliyindəki qurumlarda və regional təhsil idarələrində, Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyində müvafiq sahələr üzrə təcrübəçi ehtiyacı müəyyən edilir və iştirakçıların sayı buna əsasən təsdiqlənir. "Təcrübəçi ehtiyacı" deyildikdə, sadəcə qurumda mentorluğun aparıla biləcəyi, tələbə və ya məzunun daha dərin biliklər əldə edəcəyi, nəzəri biliklərini düzgün tətbiq edə biləcəyi istiqamətlər müəyyənləşir. Bu il proqram çərçivəsində məhdud sayda iştirakçının təcrübəyə cəlb olunması nəzərdə tutulur. Seçim prosesi nəticəsində ən yüksək nəticə göstərən və proqramın tələblərinə uyğun namizədlərin iştirakına üstünlük veriləcək. İştirakçı sayı ilə bağlı dəqiq məlumat seçim mərhələləri tamamlandıqdan sonra açıqlanacaq. Əlavə olaraq qeyd etmək istəyirəm ki, "Maarifçi" işə qəbul proqramı deyil, təcrübə proqramıdır. Tələbə və ya məzunlar proqramda iştirak etməklə elm və təhsil sahasində bilik və bacarıqlarını artırırlar. Təcrübə müddətində bilik və bacarıqları ilə seçilən kadrlar qurumlarda müvafiq yardımçı vəzifələr üzrə vakansiya olduqda ehtiyat kadr kimi nəzərdən keçirilirlər. Ancaq burada qəti şəkildə proqramın işə qəbulla nəticələnəcəyi barədə vəd verilmir. Onu da əlavə edim ki, Elm və Təhsil Nazirliyində və strukturuna daxil olan qurumlarda işə qəbul "Dövlət qulluğu" haqqında müvafiq qanunvericiliyə əsasən aparılır. Sevindirici haldır ki, artıq "Maarifçi"lərimiz sırasında "Dövlət qulluğu vəzifələri üzrə test imtahanından keçmək" barədə sertifikat alanlar və müsabiqənin digər mərhələlərindən keçib "dövlət qulluqçusu" olanlar var.

**Ruhiyyə DAŞSALAHLI**



**"Müəllimin pedaqoji gündəliyi"**

**Azərbaycan Gənc Müəllimlər Assosiasiyası ilə birgə layihə**

**Uşaqlıq dövrü insan həyatının ən həssas və eyni zamanda ən məhsuldar mərhələlərindən biridir. Bu dövrdə uşaqlar ətraf aləmi kəşf edir, ilk bilik və bacarıqları əldə edir, şəxsiyyətlərinin əsas xüsusiyyətlərini formalaşdırırlar. Uşağın dünyasında isə oyunun xüsusi yeri vardır. Oyun və oyuncaqlar uşaqlar üçün sadəcə əyləncə vasitəsi deyil, həm də öyrənməyin, düşünməyin və dünyanı anlamağın ən təbii yoludur. Məhz buna görə də müasir təlim sistemi uşaqların bu təbii ehtiyacını nəzərə alaraq oyuncaqlardan oyunəsaslı öyrənməyə doğru mühüm bir inkişaf mərhələsi keçmişdir.**



# Oyuncaqlardan oyun əsaslı öyrənmə

Ənənəvi yanaşmalarda oyuncaqlar əsasən uşaqları məşğul edən və onları əyləndirən vasitə kimi qəbul edilirdi. Uşaqlar oyuncaqlarla oynayır, vaxtlarını maraqlı keçirir və müəyyən qədər sosial bacarıqlar əldə edirdilər. Lakin zaman keçdikcə pedaqoji araşdırmalar göstərdi ki, oyuncaqlar uşaqların intellektual və emosional inkişafında daha böyük rol oynayır. Məsələn, konstruktiv oyuncaqlar uşaqlarda məntiqi düşünmə və yaradıcılıq qabiliyyətini inkişaf etdirir, rol oyunları isə onların təxəyyülünü və ünsiyyət bacarıqlarını gücləndirir.

Məhz bu yanaşmaların nəticəsində müasir təhsil sistemində oyun və oyuncaqlar yeni məna qazanmışdır. Artıq onlar sadəcə əyləncə vasitəsi deyil, təlim prosesinin mühüm tərkib hissəsi kimi qəbul olunur. Beləliklə, oyuncaqlardan istifadə tədricən oyun əsaslı öyrənmə modelinə keçid yaratmışdır. Bu modeldə oyun təlim prosesinin əsas alətlərindən biri kimi istifadə olunur və şagirdlərin bilik əldə etməsini daha maraqlı və effektiv edir.

Oyun əsaslı öyrənmə şagirdlərin dərs prosesində fəal iştirakını təmin edən müasir pedaqoji yanaşmalardan biridir. Bu metod vasitəsilə şagirdlər yalnız məlumat qəbul edən tərəf olmur, eyni zamanda öyrənmə prosesinin aktiv iştirakçısına çevrilirlər. Oyun zamanı şagirdlər tapşırıqları yerinə yetirir, problemləri həll edir, yeni ideyalar irəli sürür və öz biliklərini tətbiq etməyi öyrənirlər. Bu isə öyrənməni daha mənalı və yadda qalan edir.

Oyuncaqlardan oyun əsaslı öyrənməyə keçid uşaqların idrak fəaliyyətinə də mühüm təsir göstərir. Oyun zamanı uşaqlar sərbəst düşünür, müxtəlif vəziyyətləri təhlil edir və problemlərin həlli üçün yaradıcı yollar axtarırlar. Onlar təkcə bilik əldə etmir, eyni zamanda analiz etmək, müqayisə aparmaq və nəticə çıxarmaq kimi vacib düşünmə bacarıqlarını inkişaf etdirirlər.

Bununla yanaşı, oyun mühiti uşaqlarda sosial və emosional bacarıqların formalaşmasına da kömək edir. Komanda oyunları zamanı şagirdlər bir-biri ilə əməkdaşlıq etməyi, fikir mübadiləsi aparmağı və qarşılıqlı hörmət göstərməyi öyrənirlər. Onlar qələbə və məğlubiyyəti qəbul etməyi, məsuliyyət daşımağı və birlikdə məqsədə çatmağın vacibliyini dərk edirlər. Bu isə onların gələcək həyatında mühüm rol oynayan sosial bacarıqların formalaşmasına şərait yaradır.

Müasir təlimdə müəllimin rolu da bu prosesdə xüsusi əhəmiyyət daşıyır. Müəllim oyuncaqları və oyun fəaliyyətlərini sadəcə əyləncə kimi deyil, məqsədyönlü pedaqoji vasitə kimi planlaşdırmalıdır. Düzgün seçilmiş oyunlar dərsin məqsədlərinə uyğun təşkil olunduqda şagirdlərin mövzunu daha yaxşı mənimsəməsinə kömək edir. Bu zaman müəllim bilik verən şəxs olmaqla yanaşı, həm də öyrənmə prosesini istiqamətləndirən və şagirdləri motivasiya edən bir bələdçiyə çevrilir.

Müasir dövrdə texnologiyanın inkişafı da oyunəsaslı öyrənmənin imkanlarını daha da genişləndirmişdir. İnteraktiv oyunlar, rəqəmsal təlim platformaları və müxtəlif təhsil tətbiqləri şagirdlərin öyrənmə prosesini daha maraqlı və dinamik edir. Bu vasitələr şagirdlərə həm fərdi, həm də qrup şəklində öyrənmək imkanı yaradır və onların öyrənməyə olan marağını artırır.

Nəticə etibarilə demək olar ki, oyuncaqlardan oyunəsaslı öyrənməyə keçid müasir təhsil sisteminin mühüm istiqamətlərindən biridir. Bu yanaşma uşaqların təbii maraqlarını və psixoloji xüsusiyyətlərini nəzərə alaraq təlim prosesini daha səmərəli və cəlbedici edir. Oyun vasitəsilə öyrənən şagirdlər yalnız bilik qazanmır, həm də düşünməyi, araşdırmağı və yaradıcı fəaliyyət göstərməyi öyrənirlər.

Beləliklə, müasir təlimdə oyun sadəcə bir fəaliyyət deyil, uşaqların inkişafına xidmət edən güclü pedaqoji vasitədir. Oyuncaqlardan başlayan bu yol oyun əsaslı öyrənmə ilə davam edərək gələcəyin düşünən, yaradıcı və fəal vətəndaşlarının yetişməsinə mühüm töhfə verir.

**Türkan MUSAYEVA,**
**Bakı şəhər 248 nömrəli tam orta məktəbin informatika laborantı**

# Aprel döyüşlərinin QƏHRƏMAN MÜƏLLİMLƏRİ

**Müasir Azərbaycan məktəbi təkcə bilik verən məkan deyil, burada xarakter formalaşır, gələcək qurulur. Bu missiyanı daşıyan müəllimlər arasında elələri var ki, onların həyat yolu bir neçə sahənin vəhdətindən ibarətdir. Samux rayon Qarayeri qəsəbə 2 nömrəli tam orta məktəbin direktoru və tarix müəllimi Şahin Məmmədov da belə şəxsiyyətlərdəndir. "Azərbaycan müəllimi" Aprel döyüşlərinin qəhrəman pedaqoqları ilə həmsöhbət olub.**



## Ön xətdən müəllimliyə və idarəetməyə...

2008-2010-cu illərdə Beyləqan, Xocavənd və Füzuli istiqamətlərində ön xətdə zabit kimi xidmət edən Şahin Məmmədov hərbi nizam-intizamı, məsuliyyəti və liderliyi məhz bu dövrdə qazandı. Sonra dövlət qulluğunda fəaliyyət göstərsə də, 2015-ci ildə könüllü şəkildə yenidən ordu sıralarına qayıtması onun Vətənə bağlılığının göstəricisidir.

Kəlbəcərin Murovdağ yüksəkliyi, Tovuzun Əlibəyli kəndi... Bu coğrafiyalar onun həyatında sadəcə məkan deyil, sınaq nöqtələri idi.

2016-cı ilin aprel döyüşlərində isə o, birbaşa hərbi əməliyyatların iştirakçısı olub. Goranboyun Tap Qaraqoyunlu və Ağdərənin Talış kəndi istiqamətlərində gedən əməliyyatlarda iştirak edən zabit göstərdiyi xidmətlərə görə fəxri fərmanla təltif olunub.

Hərbi xidmətini başa vurduqdan sonra Şahin Məmmədov təhsilə qayıdaraq müəllimlik fəaliyyətinə başlayıb. 2017-ci ildə müəllimlərin işə qəbulu müsabiqəsində uğur qazanaraq Samux rayon Köbər kənd məktəbində tarix müəllimi kimi fəaliyyətə başlayıb.

2023-cü ildən isə Qarayeri qəsəbə 2 nömrəli tam orta məktəbin direktoru kimi fəaliyyət göstərir. O, bu gün həm rəhbər, həm müəllim, həm də keçmiş zabit kimi məktəbdə xüsusi nüfuz sahibidir.

## "Həm tariximizi öyrədirəm, həm şagirdlərimizin gələcəyi üçün çalışıram"

Şahin müəllim üçün hərb, tarix və idarəçilik ayrı-ayrı sahələr deyil: "Bu üç sahə kənardan fərqli görünsə də, əslində, bir-birini tamamlayan təməl prinsiplərə söykənir: intizam, fədakarlıq və tarixə bağlılıq. Döyüş təcrübəsi mənə çətin anlarda soyuqqanlı qalmağı və strateji düşünməyi öyrədib. Tarixçi olmağım keçmişimizdən dərs çıxararaq gələcəyi qurmaqda mənə yol göstərir. Direktorluq isə bütün bu təcrübələri kollektiv şəkildə tətbiq etmək platformasıdır. Bununla mən həm tariximizi öyrədirəm, həm şagirdlərimizin gələcəyi üçün çalışıram".

Onun fikrincə, hərb və təhsil arasında düşündüyümüzdən daha çox oxşarlıq var: "Hər iki sahədə ən vacib oxşarlıq məsuliyyət və insan amilidir. Müharibə zamanı verilən qərar bir insanın həyatı, məktəbdə verilən qərar isə bir şagirdin taleyi və gələcəyi deməkdir. Həm komandir, həm də direktor olaraq dərk edirsən ki, arxandakı kollektivin sənə inanması ən vacib amillərdəndir. Planlama, resursların (istər hərbi, istər pedaqoji) düzgün bölüşdürülməsi və böhran anında operativ reaksiya vermək hər iki sahənin ortaq nöqtəsidir. Hər iki işdə qətiyyətli və ən önəmlisi ədalətli olmaq lazımdır".

## Vətənpərvərlik mühiti yaradılır

Direktor olaraq onun əsas prioritetlərindən biri şagirdlərdə vətənpərvərlik hissinin formalaşdırılmasıdır. Bu istiqamətdə məktəbdə mütəmadi tədbirlər keçirilir, şagirdlərə tariximizin şanlı səhifələri öyrədilir: "Vətənpərvərlik sadəcə şüar deyil, gündəlik həyat tərzidir. Məktəbimizdə mütəmadi olaraq tarixi günlərlə bağlı tədbirlər təşkil edirik, şagirdlərin tariximizin şanlı səhifələrini məsələn, Aprel döyüşləri, Tovuz döyüşləri, Vətən müharibəsi və s. dərindən öyrənmələri üçün çalışırıq. Qəsəbəmizin şəhidlərinin anım günlərində onların məzarları ziyarət edilir. Mən həm də şagirdlərimə vətəni yaxşı oxumaqla, daha innovativ olmaqla, olimpiada qalibi olmaqla, özünü inkişaf etdirməklə də sevməyin mümkünlüyünü bildirirəm".

Şahin müəllim üçün müəllimlik sadəcə fənn tədrisi deyil — bu, həyat dərsi verməkdir: "Mənim şagirdlərimə verdiyim ən vacib dərs qarşılarına qoyduqları hədəfə doğru əzmlə, səbirlə, ağılla irəliləmələridir. İnsan həm döyüşdə həm də çətin bir imtahan zamanı öz daxili gücünə inanmalıdır. Şagirdlərimə tövsiyə edirəm ki, heç bir çətinliyin əbədi olmadığını unutmasınlar, ədalətli və intizamlı olmağı isə hər şeydən üstün tutsunlar".



# "Döyüş təcrübəsi mənə strateji düşünməyi öyrədib"

## Vətənə bağlanan ömür yolu

Samux rayonunun Qovlarsarı kənd məktəbində fəaliyyət göstərən gənclərin çağırışaqədərki hazırlıq müəllimi, ehtiyatda olan zabit Nuhin Əhmədov 1990-cı ildə Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonunun Yurdçu kəndində anadan olub. Orta təhsilini doğma kəndində aldıqdan sonra həyat yolunu hərb sahəsi ilə davam etdirib. Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Liseydə, daha sonra isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində "Yerüstü artilleriya" ixtisası üzrə təhsil alıb.

2012-ci ildən Azərbaycan Ordusunda zabit kimi xidmətə başlayan Nuhin Əhmədov qısa müddətdə məsuliyyətli və peşəkar hərbçi kimi formalaşıb. Gəncə şəhərində və daha sonra cəbhə bölgəsində xidmətini davam etdirən zabit 2016-cı ilin Aprel döyüşlərində ön cəbhədə yer alıb.

Komanda müşahidə məntəqəsinin komandiri kimi xidmət edən Nuhin Əhmədov döyüş zamanı ağır yaralanıb. Aldığı qəlpə yaraları nəticəsində sağ əlində üç barmağını itirib. Uzun müddət hospital şəraitində müalicə alsa da, sağlamlığı tam bərpa olunmayıb və 2017-ci ildə ehtiyata buraxılıb.





Ehtiyata buraxıldıqdan sonra doğma rayona qayıdan Nuhin Əhmədov dövlət tərəfindən mənzillə təmin olunub. Daha sonra müalicəsini davam etdirmək üçün Samux rayonuna köçərək burada yeni həyat mərhələsinə qədəm qoyub. 2021-ci ildən etibarən o, Qovlarsarı kənd məktəbində gənclərin çağırışaqədərki hazırlıq fənnini tədris edir.

Nuhin müəllimin dərsləri fərqlidir. O, şagirdlərinə yalnız kitab biliklərini ötürməklə kifayətlənmir, şəxsi təcrübəsini də bölüşür: "Aprel döyüşlərində qazandığım şəxsi

## Yeni həyat, yeni missiya

döyüş təcrübəsi dərslərimə birbaşa təsir edir. Mən çalışıram ki, gənclərə yalnız nəzəri bilik yox, eyni zamanda real döyüş şəraitində lazım olan bacarıqları da öyrədim. Şəxsi təcrübəmdən nümunələr gətirərək onlara vətənpərvərlik ruhu aşılayıram, çətin vəziyyətlərdə necə davranmalı olduqlarını izah edirəm. Bu da şagirdlərin dərsə marağını artırır və onların məsuliyyət hissini gücləndirir".

Qəhrəman müəllim gənclərin bugünkü hərbi hazırlığa münasibətini müsbət qiymətləndirir və onların artan marağını xüsusi vurğulayır: "Müasir dördə gənclərin hərbi hazırlığa münasibətini ümumilikdə müsbət qiymətləndirirəm. Xüsusilə son illərdə gənclər arasında vətənpərvərlik ruhunun daha da gücləndiyini müşahidə edirik. Onlar hərbi biliklərə yiyələnməyə, fiziki cəhətdən hazırlıqlı olmağa və vətənin müdafiəsinə hər an hazır olmağa böyük maraq göstərirlər. Gənclərin çağırışaqədərki hazırlıq fənnini tədris edərkən görürəm ki, şagirdlər hərbi sahə ilə bağlı mövzulara ciddi yanaşır, suallar verir və öyrənməyə çalışırlar. Biz müəllimlərin də əsas məqsədi bu marağı daha da artırmaq, gənclərə düzgün hərbi biliklər vermək və onlarda vətənpərvərlik hissini daha da gücləndirməkdir".

## "Məktəbdə vətənpərvərlik tərbiyəsi praktik və real nümunələr əsasında aşılanmalıdır"

Onun fikrincə, vətənpərvərlik tərbiyəsi yalnız sözlə deyil, nümunə ilə aşılanmalıdır: "Mənim fikrimcə, məktəbdə vətənpərvərlik tərbiyəsi yalnız nəzəri şəkildə deyil, praktik və real nümunələr əsasında aşılanmalıdır. Şagirdlərə vətəni sevməyi tariximizi, qəhrəmanlarımızı və ordumuzun uğurlarını tanıtmaqla öyrətmək daha təsirli olur. Mən də şəxsi döyüş təcrübəmdən nümunələr gətirərək şagirdlərə vətənin nə qədər dəyərli olduğunu izah edirəm".



Nuhin Əhmədov sonda fikirlərini bu sözlərlə tamamlayır: "Mən özümü həm müəllim, həm də hərbçi kimi hiss edirəm. Çünki hər iki sahə bir-birini tamamlayır. Hərbçi kimi qazandığım təcrübə müəllimlik fəaliyyətimdə gənclərə daha real biliklər verməyimə kömək edir. Müəllim kimi isə çalışıram ki, gəncləri vətənpərvər ruhda yetişdirim və onları gələcək hərbi xidmətə daha yaxşı hazırlayım. Bu iki sahə mənim üçün bir-birini tamamlayır və mən hər ikisini qürurla daşıyıram".

**Firuzə CÜMŞÜD,**
**Gəncə-Daşkəsən və Qazax-Tovuz üzrə regional təmsilçi**

# Gələcəyin dərsliyi necə olmalıdır?



**Uzun illərdir ki, dərsliklər təhsil sisteminin əsas sütunlarından biri hesab olunur. Məktəb və universitet auditoriyalarında biliklərin sistemli şəkildə ötürülməsi üçün hazırlanmış bu kitablar müəllim və şagird arasında əsas vasitəyə çevrilmişdir. Bir çox ölkələrdə dərslik yalnız tədris materialı deyil, həm də proqramın məzmununu müəyyən edən əsas mənbə kimi qəbul edilməkdədir. Müəllimlərin dərs planları, şagirdlərin gündəlik hazırlığı və imtahanların məzmunu çox vaxt məhz dərsliklər üzərində qurulur.**

Lakin son illərdə təhsil mühitində baş verən texnoloji və metodoloji dəyişikliklər mütəxəssisləri bu ənənəvi model haqqında yenidən düşünməyə vadar edir. İndi internetin sürətlə yayılması, elektron resursların çoxalması və interaktiv öyrənmə metodlarının inkişafı nəticəsində dərsliyin rolu əvvəlki kimi dəyişməz və mütləq hesab edilmir. Müasir təhsil müzakirələrində getdikcə daha çox belə bir sual səslənir: görəsən, gələcəyin məktəbində ənənəvi dərslik əvvəlki rolunu qoruyub saxlaya biləcəkmi?

Təhsil fəlsəfəsinin tanınmış nümayəndələrindən biri olan Con Devi hələ XX əsrin əvvəllərində qeyd edirdi ki, təhsil yalnız hazır biliklərin ötürülməsi deyil, həm də şagirdin fəaliyyəti və topladığı təcrübə vasitəsilə öyrənmə prosesidir. Onun fikrincə, təlim prosesi həyatla sıx bağlı olmalı və şagirdləri passiv dinləyici deyil, aktiv iştirakçıya çevirməlidir.

**HAŞİYƏ.** *Con Devi (1859-1952) XIX-XX əsrlərin ən məşhur pedaqoqlarından və filosoflarından biridir. O, müasir təhsilin inkişafında böyük rol oynamış və təhsilin yalnız nəzəri biliklərin ötürülməsi deyil, həm də şagirdin həyat təcrübəsi ilə bağlı olması fikrini irəli sürmüşdür. Con Devinin pedaqoji ideyaları demokratik cəmiyyət və fəal öyrənmə prinsiplərinə əsaslanır. O yazdığı pedaqoji əsərlərindən birində - "Mənim pedaqoji etiqadım" ("My Pedagogic Creed" (1897) əsərində təhsilin məqsədi, müəllimin rolu və məktəbin cəmiyyətdəki funksiyası haqqında öz baxışlarını izah edir. O hesab edirdi ki, müəllim sadəcə məlumat verən şəxs deyil, şagirdin inkişafına istiqamət verən və onu düşünməyə təşviq edən bələdçidir.*

Belə təhsil alanlara yönəlmiş yanaşmalar müasir pedaqogikanı bir çox istiqamətlərində inkişaf etdirmiş və nəticədə dərsliklərin funksiyası barədə yeni müzakirələr ortaya çıxmışdır. Artıq bugünkü təhsil mühitində dərsliklərə yeganə bilik mənbəyi kimi yanaşılmır. Onlar daha geniş və çoxşaxəli öyrənmə sisteminin yalnız bir hissəsi kimi qiymətləndirilir. Təhsil alanlarda tədqiqatçılıq bacarıqlarının inkişaf etdirilməsinə xidmət göstərir.

## Ənənəvi dərslik modelinin xüsusiyyətləri

Uzun müddət təhsil sistemi müəllim və dərslik mərkəzli model üzərində qurulmuşdur. Bu modeldə dərslik tədris prosesinin əsas istiqamətləndirici vasitəsi hesab edilirdi. Mövzuların ardıcıllığı, verilən məlumatın həcmi və hətta müəllimin izah üsulu çox vaxt dərsliyin strukturu ilə müəyyən olunurdu. Şagirdlərin əsas vəzifəsi isə dərslikdə təqdim olunan məlumatı oxumaq, yadda saxlamaq və imtahanlarda onu təkrar etməkdən ibarət idi. Təəssüflər olsun ki, bu ənənə hələ də bəzi məktəblərimizdə qalmaqdadır.

Belə bir yanaşma uzun müddət təhsil sistemində səmərəli vasitə kimi qəbul edilsə də, sonradan bu modelin müəyyən məhdudiyyətlərə malik olması haqqında fikirlər meydana çıxmışdır. Tədqiqatçılar qeyd edirlər ki, yalnız dərsliyə əsaslanan təlim prosesində şagirdlərin yaradıcılığı və müstəqil düşünmə bacarıqları bəzən kifayət qədər inkişaf etmir. Bu vəziyyət şagirdlərin passiv öyrənənə çevrilməsi riskini yaradır.

Bu məsələyə tənqidi yanaşan pedaqoqlardan biri Paulo Freire "Məzlumların pedaqogikası" ("Pedagogy of the Oppressed") (1970) adlı məşhur əsərində ənənəvi təhsil modelini "bank modeli" adlandırmışdır. Freire bu modeli belə təsvir edir ki, müəllim və dərslik bilikləri "depozit" kimi təqdim edir, şagird isə həmin məlumatları sadəcə qəbul edir və yadda saxlayır. Onun fikrincə, bu yanaşma şagirdlərin tənqidi düşünmə qabiliyyətini və yaradıcı potensialını məhdudlaşdıra bilər.

**HAŞİYƏ.** *Paulo Freire (1921-1997) braziliyalı pedaqoq və filosofdur. O, tənqidi pedaqogika sahəsinin ən məşhur nümayəndələrindən biridir və təhsilin cəmiyyətdə azadlıq və şüurun inkişafı üçün mühüm vasitə olduğunu vurğulamışdır. Freire ən çox "Pedagogy of the Oppressed" əsəri ilə tanınır. Bu kitabda o, ənənəvi "bank tipli təhsil" modelini tənqid edir və müəllimlə şagird arasında dialoqa əsaslanan, düşünməyi və sual verməyi təşviq edən təhsil modelini müdafiə edir. Freiryə görə, təhsil insanlara öz sosial vəziyyətlərini anlamağa və dəyişdirməyə kömək etməlidir. Onun ideyaları bu gün də dünyada təhsil, sosial ədalət və demokratiya mövzularında böyük təsirə malikdir.*

Freire hesab edirdi ki, təhsil prosesində müəllim və şagird arasında dialoq olmalı, biliklər birgə müzakirə və araşdırma yolu ilə əldə edilməlidir. Bu baxımdan dərslik yalnız məlumat mənbəyi kimi deyil, həm də müzakirə və tədqiqat üçün başlanğıc nöqtəsi kimi istifadə olunmalıdır.

Müasir pedaqogika da bu fikri müəyyən dərəcədə dəstəkləyir. Bir çox alimlərin fikrincə, təhsil sistemi dəyişən dünyaya uyğunlaşmalı və şagirdlərin yalnız faktları yadda saxlamasına deyil, həm də problemləri analiz etmə və yeni biliklər yaratma bacarığına diqqət yetirməlidir. Bu isə dərsliklərin təhsil prosesindəki rolunun yenidən qiymətləndirilməsinə gətirib çıxarır.

## Rəqəmsal texnologiyaların təsiri

Bu gün XXI əsrdə informasiya texnologiyalarının sürətli inkişafı təhsil sisteminə də ciddi təsir göstərmişdir. İnternetin geniş yayılması, elektron kitabların, onlayn kursların və interaktiv tədris platformalarının yaranması nəticəsində bilik əldə etməyin yolları xeyli genişlənmişdir. Əgər əvvəllər şagird və tələbələr üçün əsas məlumat mənbəyi dərslik idisə, bu gün müxtəlif rəqəmsal resurslar həmin rolu qismən oynamaqdadır.

Müasir şagird artıq məlumatı yalnız kitabdan deyil, müxtəlif mənbələrdən əldə edə bilir. Artıq onlayn məqalələr, video dərslər, virtual laboratoriyalar və interaktiv platformalar tədris prosesinin ayrılmaz hissəsinə çevrilmişdir. Bu isə dərsliyin əvvəlki kimi yeganə və dəyişməz bilik mənbəyi olaraq qəbul edilməsini sual altına alır.

Bu dəyişikliklərin elmi əsaslarından biri də Richard E.Mayer tərəfindən irəli sürülmüş multimedia öyrənmə nəzəriyyəsi ilə bağlıdır. Mayer öz tədqiqatlarında göstərir ki, insanlar məlumatı yalnız mətn vasitəsilə deyil, mətn, şəkil, qrafik və animasiyanın birlikdə təqdim edildiyi zaman daha yaxşı mənimsəyirlər. Bu yanaşma müasir tədris materiallarının hazırlanmasında geniş tətbiq olunur.

**HAŞİYƏ.** *Richard E. Mayer (1941) ABŞ-li təhsil psixoloqudur və insanların necə öyrəndiyini araşdıran məşhur alimlərdən biridir. O, xüsusilə tədrisdə şəkil, mətn və səs kimi müxtəlif vasitələrin birlikdə istifadəsinin öyrənməyə təsirini tədqiq etmişdir. Mayer uzun illər Kaliforniya Universitetində, Santa Barbara Universitetində professor kimi çalışmış və təhsil psixologiyası sahəsində çoxsaylı elmi əsərlər yazmışdır. Onun ən məşhur əsərlərindən biri olan "Multimediya təlimi" ("Multimedia Learning") kitabı 2001-ci ildə nəşr olunmuşdur. Bu kitabda müəllif insanların şəkil, mətn və səs kimi müxtəlif informasiya kanallarından istifadə edərək necə daha effektiv öyrəndiyini izah edir.*

Son illərdə bir çox ölkələrdə elektron dərsliklər və rəqəmsal təhsil platformaları inkişaf etdirilmişdir. Elektron dərsliklər ənənəvi kitablarla müqayisədə daha dinamik və çevikdir. Onlar videolar, animasiyalar, interaktiv tapşırıqlar və əlavə resurslarla zənginləşdirilə bilər. Bu xüsusiyyətlər şagirdlərin mövzunu daha dərindən başa düşməsinə və öyrənmə prosesində daha fəal iştirak etməsinə imkan yaradar.

Bununla belə, tədqiqatçılar qeyd edirlər ki, rəqəmsal texnologiyalar dərslikləri tamamilə əvəz etməkdən çox onların funksiyasını dəyişdirir. Müasir təhsil sistemində dərslik artıq yalnız məlumat kitabı deyil, müxtəlif elektron resurslarla birlikdə istifadə olunan kompleks tədris vasitəsinin bir hissəsinə çevrilir.

## Müasir alimlərin dərsliyin gələcəyi haqqında fikirləri

Artıq müasir təhsil müzakirələrində dərsliklərin gələcəyi ilə bağlı müxtəlif fikirlər irəli sürülür. Bir çox alimlər hesab edirlər ki, informasiya texnologiyalarının inkişafı nəticəsində dərsliklər artıq əvvəlki kimi təhsil prosesinin yeganə əsas mənbəyi ola bilməz. Bunun əsas səbəbi informasiya mənbələrinin sürətlə artması və bilik əldə etməyin yeni yollarının meydana çıxmasıdır.

Təhsil sahəsində tanınmış tədqiqatçılardan biri olan Neil Postman qeyd edirdi ki, müasir dövrdə məktəbin əsas vəzifəsi yalnız məlumat vermək deyil. Onun fikrincə, informasiya bolluğu şəraitində əsas məsələ şagirdlərə məlumatı seçmək, analiz etmək və düzgün istifadə etmək bacarığını öyrətməkdir. Bu yanaşma dərsliyin rolunun dəyişməsinə də təsir edir. Artıq əsas məqsəd məlumatı sadəcə təqdim etmək deyil, şagirdin düşünmə və araşdırma bacarıqlarını inkişaf etdirməkdir.

**HAŞİYƏ.** *Neil Postman (1931-2003) amerikalı media nəzəriyyəçisi, pedaqoq və yazıçı idi. O, xüsusilə media, təhsil və mədəniyyətin cəmiyyətə təsiri barədə yazıları ilə tanınmışdır. Postman uzun illər Nyu-York Universitetində dərs demiş və kommunikasiya sahəsində tanınmış alimlərdən biri olmuşdur.*

Postmanın 1995-ci ildə nəşr olunan "The End of Education": "Məktəbin dəyərinin yenidən müəyyənləşdirilməsi" ("Redefining the Value of School") adlı kitabı təhsilin məqsədi haqqında yeni düşüncə tərzi təklif edir. Müəllif hesab edir ki, məktəblər yalnız məlumat ötürən yer deyil, həm də cəmiyyətin dəyərlərini formalaşdıran mühüm institutdur. Postman kitabda təhsilin mənasının itirilməsinin səbəblərini araşdırır və məktəblərin şagirdlərə yalnız bilik deyil, həm də mənəvi və mədəni istiqamət verməli olduğunu vurğulayır. Onun fikrincə, güclü və mənalı "Böyük hekayələr" təhsil sisteminə məqsəd qazandırır. Bu əsər təhsil fəlsəfəsi sahəsində mühüm müzakirələrə səbəb olmuşdur.

Təhsil texnologiyaları sahəsində aparılan araşdırmalar da bu fikri müəyyən dərəcədə təsdiqləyir. Məsələn, Suqata Mitra tərəfindən aparılmış məşhur "Divartdakı dəlik" ("Hole in the Wall") eksperimentləri göstərmişdir ki, uşaqlar bəzən müəllimin və ya dərsliyin birbaşa müdaxiləsi olmadan da texnologiya vasitəsilə yeni biliklər əldə edə bilirlər. Bu tədqiqatlar göstərir ki, öyrənmə prosesi yalnız ənənəvi tədris vasitələri ilə məhdudlaşmır.

**HAŞİYƏ.** *Suqata Mitra (1952) hindistanlı təhsil texnoloqu və tədqiqatçıdır. O, texnologiyanın uşaqların öz-özünə öyrənməsinə necə kömək etdiyini araşdırması ilə tanınır. Mitra xüsusilə Hindistanda həyata keçirdiyi "Divardakı dəlik" (Hole in the Wall) eksperiment layihəsi ilə məşhurlaşmışdır. Bu layihədə küçədə yerləşdirilən kompüterlər vasitəsilə uşaqların müəllim olmadan yeni biliklər öyrənə bilmələri göstərilmişdir. Onun 2012-ci ildə nəşr olunan "Divardakı dəlikdən o tərəfdə" ("Beyond the Hole in the Wall") adlı əsəri bu təcrübələrin nəticələrini və müasir təhsildə texnologiyanın rolunu izah edir. Kitabda müəllif bildirir ki, maraq və sərbəst araşdırma uşaqların öyrənməsində çox mühüm rol oynayır.*

Bununla yanaşı, bəzi mütəxəssislər hesab edir ki, dərsliklər tamamilə aradan qalxmayacaq. Əksinə, onlar yeni təhsil mühitinə uyğunlaşaraq fərqli funksiyalar yerinə yetirəcək. Dərsliklər biliklərin sistemləşdirilməsi və əsas anlayışların təqdim edilməsi üçün hələ də mühüm vasitə kimi qalır. Lakin onların rolu getdikcə dəyişir və daha çox bələdçi və istiqamətləndirici resurs kimi qəbul olunur.

Bunlar onu göstərir ki, müasir pedaqoji fikirdə dərsliklərin tamamilə sıradan çıxması deyil, onların funksional transformasiyası haqqında danışmaq daha düzgün hesab edilir. Dərsliklərin yeni texnologiyalara uyğunlaşdırılmasından bəhs olunur.

## Dərsliklərin transformasiyası və yeni modellər

Bütün bunlar onu göstərir ki, müasir təhsil sistemi dərsliklərin funksiyasını tədricən dəyişdirir və onları ənənəvi kağız kitab rolundan çıxarıb, daha çevik və interaktiv resurslara çevirir. Bu transformasiya bir neçə istiqamətdə baş verir.

Əvvəla, rəqəmsal platformaların tətbiqi dərsliklərin mövcud strukturunu zənginləşdirir. Elektron dərsliklər interaktiv animasiyalar, videolar, testlər və layihə tapşırıqları ilə təchiz olunaraq şagirdin öyrənmə prosesini daha fəal və vizual edir. Bu isə, öz növbəsində, yalnız məlumatın ötürülməsi ilə kifayətlənməyib, eyni zamanda şagirdin problemləri və mənbələri analiz etməsinə, müqayisələr aparmasına və nəticələr çıxarmasına imkan yaradır.

İkincisi, açıq təhsil resurslarının inkişafı dərsliklərin rolunu dəyişdirən başqa bir amildir. UNESCO bu resursları dəstəkləyir və hesab edir ki, açıq resurslar müəllim və şagirdlərə müxtəlif materiallardan sərbəst istifadə etməyə imkan verir. Dərsliklər isə artıq tək və dəyişməz mənbə kimi deyil, daha çevik və mütəhərrik vasitəyə çevrilir. Belə yanaşma tədris prosesini daha adaptiv etməklə öyrənənlərin tələbatına uyğunlaşdırır.

Üçüncüsü, müasir pedaqoji modellər dərslikdən istifadənin kooperativ və layihə əsaslı öyrənmə çərçivəsində yenidən qurulmasını tələb edir. Tərsinə sinif ("Flipped classroom") modelində olduğu kimi. (Bu model üzrə şagird evdə elektron dərslik və digər resurslardan istifadə edərək mövzunu öyrənir, sinifdə isə müəllimlə birlikdə müzakirə və praktiki fəaliyyət aparır. Bu yanaşma dərsliyin passiv bilik mənbəyi deyil, təlim prosesini dəstəkləyən vasitə rolunu gücləndirir).

Nəticədə müasir dərsliklər yalnız məlumat ötürən vasitə deyil, təlimin bütün elementləri ilə əlaqələndirilmiş interaktiv və çoxşaxəli resurs olaraq çıxış edir. Bu transformasiya dərsliyin sıradan çıxması deyil, onun funksional və metodoloji inkişafını göstərir.

## Dərsliklərin gələcək rolu

Müasir pedaqoji və texnoloji inkişaflar göstərir ki, dərsliklər sıradan çıxmır, onların funksiyası və forması əhəmiyyətli dərəcədə dəyişir. Ənənəvi kağız kitablar hələ də biliklərin sistemləşdirilməsi və əsas anlayışların təqdimatı üçün mühüm vasitə kimi qalır, amma tədrisin tək və dominant mənbəyi olmur.

Dərsliklər bu gün elektron və multimedia formatlarında təqdim olunur, interaktiv tapşırıqlar və layihə fəaliyyətləri ilə zənginləşdirilir, müəllim və şagird arasında dialoq və əməkdaşlığı təşviq edir, müxtəlif rəqəmsal və açıq təhsil resursları ilə inteqrasiya olunur.

Müasir tədqiqatlar və alimlərin fikirləri göstərir ki, dərsliklər daha çox bələdçi və dəstəkçi rolunu oynayır, şagirdləri tənqidi düşünməyə və müstəqil öyrənməyə yönəldir. Təhsil yalnız məlumatın ötürülməsi deyil, şagirdin fəal iştirakı və təcrübəsi üzərində qurulmalıdır. Şagirdlər texnologiya və müasir resurslar vasitəsilə öz biliklərini müstəqil olaraq inkişaf etdirə bilirlər. Bu isə o deməkdir ki, dərsliklər artıq yeganə mənbə deyildir.

Buna görə də gələcəyin təhsil sistemi hibrid model üzərində qurulacaq. Ənənəvi və elektron dərsliklər, interaktiv resurslar və müəllim rəhbərliyi birlikdə şagirdlərin həm bilik, həm bacarıq, həm də tənqidi düşünmə qabiliyyətini inkişaf etdirəcək. Bu dəyişiklik dərsliklərin sıradan çıxması deyil, onların təhsil prosesinə uyğunlaşması və yenidən formalaşması ilə nəticələnəcəkdir.

Beləliklə, dərsliklər hələ də müasir təhsil sistemində əvəzolunmaz vasitə olaraq qalır, lakin onların rolu daha çevik, interaktiv və şagirdyönümlü (tələbəyönümlü) şəkildə yenidən qurulur. Gələcəkdə də bu ənənə davam edəcək, dərsliklər yalnız məlumat kitabı deyil, həm də öyrənmə prosesini zənginləşdirən kompleks resurs kimi inkişaf edəcəkdir.

Odur ki, təhsil tədqiqatları ilə bağlı araşdırmaların sistemində təlimin məzmunu ilə əlaqədar məsələlər ayrıca yer tutmalı, xüsusilə standartlara uyğun yeni dərsliklərin didaktik əsaslarının - prinsiplərin, məzmun komponentlərinin müəyyənləşməsi, kreativ, hissi-emosional bacarıqların formalaşmasına yönəlmiş sistemin qurulması və s. ön planda dayanmalıdır. Gələcəyin şəxsiyyətyönümlü dərslik modellərinin hazırlanması istiqamətində həm elmi, təşkilati-metodik, həm də maarifləndirici işlər aparılmalıdır.



**Ənvər ABBASOV,**
**Bakı Slavyan Universitetində rektorun məsləhətçisi, pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Əməkdar müəllim**



# Süni intellekt təhsildə

## Müasir texnologiya müəllimi əvəz edirmi?



**Bir zamanlar sinif otağında bilik mənbəyi yalnız müəllim və dərslik idi. Şagirdlər təbaşirlə yazılmış lövhəyə baxır, qeydlər aparır və müəllimin izahlarını diqqətlə dinləyirdilər. Bu gün isə eyni sinif otağında rəqəmsal lövhələr, planşetlər, onlayn platformalar və hətta süni intellekt əsaslı proqramlar mövcuddur. Təhsil sistemi sürətlə rəqəmsallaşır və texnologiya həyatımızın hər sahəsində olduğu kimi, məktəblərə də güclü şəkildə daxil olur. Və rəqəmsallaşma artıq sadəcə texniki yenilik deyil, yeni düşüncə tərzidir. İnformasiya saniyələr içində əldə olunur, distant təhsil imkanları sərhədləri aradan qaldırır, süni intellekt şagirdlərin fərdi inkişaf trayektoriyasını təhlil edə bilir. Süni intellekt əsaslı proqramlar şagirdin zəif və güclü tərəflərini müəyyənləşdirərək ona uyğun tapşırıqlar təqdim edir, müəllimə isə analitik dəstək verir. Bütün bunlar təhsilin daha əlçatan, çevik və fərdiləşdirilmiş olmasına şərait yaradır. Lakin burada əsas sual yenə də aktuallığını qoruyur: texnologiya və süni intellekt müəllimi əvəz edə bilərmi? "Azərbaycan müəllimi" elə bu sualla təhsil işçilərinə müraciət edib.**

## "Texnologiya bizi əvəz etmək yox, daha güclü etmək üçündür"



Bakıdakı Məmməd Rahim adına 7 nömrəli tam orta məktəbin riyaziyyat müəllimi Şəhla Yolçuyevanın sözlərinə görə, muasir texnologiya təhsil prosesində müəllimi əvəz edən deyil, lakin onun pedaqoji fəaliyyətini gücləndirən və dəstəkləyən müasir texnoloji vasitədir: "Təhsil yalnız biliklərin ötürülməsi prosesi deyil, eyni zamanda şəxsiyyətin formalaşması, sosial və emosional bacarıqların inkişafıdır. Bu baxımdan müəllimin rolu əvəzolunmazdır. Riyaziyyat müəllimi olaraq pedaqoji fəaliyyətimdə müasir texnologiyalardan geniş şəkildə istifadə edirəm. Xüsusilə dərs prosesində virtual reallıq (VR) eynəkləri, eləcə də riyaziyyat fənninin müxtəlif mövzularını əhatə edən interaktiv proqram və tətbiqlərdən yararlanıram.Həmin proqramlar vasitəsilə mövzular oyun əsaslı tapşırıqlar və vizual modellər üzərindən təqdim olunur ki, bu da şagirdlərin dərsə marağını artırır, abstrakt anlayışların daha asan qavranılmasına şərait yaradır.Müasir texnologiyalardan məqsədyönlü istifadə və düzgün pedaqoji yanaşma əsasında dərslər daha səmərəli, dinamik və şagirdyönümlü təşkil olunmasına mühüm töhfə verir".

### İnteraktiv proqramlar, vizual simulyasiyalar

Pedaqoq söyləyir ki, riyaziyyat bəzən şagirdlərə çətin və abstrakt görünə bilər. Amma interaktiv proqramlar və vizual simulyasiyalar sayəsində mürəkkəb anlayışları daha aydın izah etmək mümkün olur. Məsələn, funksiyaların qrafiklərini canlı şəkildə dəyişdirərək göstərmək şagirdin mövzunu tez qavramasına kömək edir.

Şəhla müəllim onu da vurğulayır ki, müəllimlə şagird arasında yaranan emosional və psixoloji bağ təlim prosesinin əsas şərtlərindən biridir. Bu bağlılıq şagirdin özünü təhlükəsiz, dəyərli və motivasiyalı hiss etməsinə şərait yaradır. Süni intellekt isə bu cür insani münasibətləri formalaşdırmaq imkanına malik deyil. Əksinə, texnologiyadan həddindən artıq istifadə uşaqların ünsiyyətdən uzaqlaşmasına, özünə qapanmasına, təkliyə və bəzi hallarda psixoloji gərginliyə, o cümlədən depressiv hallara meyillənməsinə səbəb ola bilər. Ona görə də,uşaqlarda canlı ünsiyyət bacarıqlarının inkişafı təhsil prosesinin əsas prioritetlərindən biri olmalıdır.

### Tədris prosesinin keyfiyyətini artıran yardımçı vasitə

Həmsöhbətimiz eyni zamanda süni intellektin tapşırıqları hazır formada təqdim etməsini şagirdin təfəkkürünün və analitik düşünmə bacarıqlarının inkişafını zəiflədə biləcəyini istisna etmir. Deyir ki, hazır cavab alan şagird araşdırmaq, müqayisə aparmaq və nəticə çıxarmaq ehtiyacı duymur. Bu isə uzunmüddətli perspektivdə zehni inkişafın qarşısını ala bilər: "Həmin zaman müəllim fasilitator rolunu oynayaraq şagirdi istiqamətləndirməli, ona düzgün suallar verməyi, araşdırma aparmağı və nəticəni özü tapmağı öyrətməlidir. Hesab edirəm ki, süni intellektdən düzgün və məqsədyönlü şəkildə istifadə edildikdə, o, şagirdin öyrənmə imkanlarını əhəmiyyətli dərəcədə genişləndirə bilər. Texnologiya yalnız vasitədir. Əgər müəllim mövzunu düzgün izah edə bilmirsə və şagirdlə ünsiyyət qurmağı bacarmırsa heç bir proqram dərsi maraqlı etməyəcək. Əsl dəyişiklik müəllimin yanaşmasında, enerjisində və yeniliyə açıq olmasındadır. Texnologiya bizi əvəz etmək yox, daha güclü etmək üçündür. Bir müəllim olaraq gəldiyim qənaət odur ki, müasir texnologiyalar,süni intellekt təhsildə müəllimin alternativi deyil. Əksinə, düzgün tətbiq edildikdə, müəllimin pedaqoji imkanlarını genişləndirən, tədris prosesinin keyfiyyətini artıran yardımçı vasitədir".

## "Optimal model insanın və texnologiyanın rəqabəti deyil, inteqrasiyasıdır"

**Süleyman Rüstəm adına Xarici dillər təmayüllü gimnaziyanın direktoru, fəlsəfə doktoru Tural Mirzəliyev bildirir ki, texnologiya təhsildə keyfiyyət göstəricilərini artırmaq üçün böyük imkanlar yaradır: "Əvvəllər şagird nailiyyətlərini təhlil etmək üşün müəyyən bir vaxt tələb olunurdusa, artıq indi rəqəmsal sistemlər vasitəsilə bunu qısa müddətdə və daha dəqiq şəkildə etmək mümkündür. Lakin məktəbin ruhunu yaradan texnika deyil, müəllimdir. Texnologiya yalnız o zaman faydalıdır ki, onu istiqamətləndirən savadlı və yaradıcı müəllim olsun. Müəllim şagirdə yalnız bilik vermir, həm də dəyərlər aşılayır, motivasiya yaradır və fərdi yanaşma göstərir. Heç bir proqram təminatı şagirdin gözündəki tərəddüdü hiss edib ona ruh yüksəkliyi verə bilməz. Mənim üçün texnologiya müəllimin alternativi deyil, onun işini asanlaşdıran və təsirini artıran bir dəstək mexanizmidir".**



Direktor qeyd edir ki, hazırda təhsil sahəsində süni intellektin tətbiqi bir çox alimlərin və universitetlərin layihələrində əsas tədqiqat mövzusudur: "Süni intellektin təhsillə inteqrasiyası fərdiləşdirilmiş öyrənmə, avtomatlaşdırılmış qiymətləndirmə və analitik monitorinq vasitəsilə orta məktəb tədrisinin strukturunu dəyişir. Bununla belə, UNESCO-nun 2023 və 2025-ci il hesabatları göstərir ki, süni intellekt və ona bağlı təlim texnologiyaları pedaqoji mühiti gücləndirə bilsə də, onu tam əvəz etmir".

Tural müəllimin sözlərinə görə, süni intellekt əsaslı öyrənmə platformaları şagirdlərin bilik səviyyəsinə uyğun məzmun təqdim etməklə akademik nəticələri yaxşılaşdıra bilər: "Məsələn, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Azərbaycana yaxşı tanış olan tədqiqatçısı Andreas Şleyxerin rəhbərliyi ilə hazırladığı hesabatlarında qeyd olunur ki, rəqəmsal analitika və süni intellekt əsaslı sistemlər düzgün tətbiq olunduqda öyrənmə boşluqlarının daha tez aşkarlanmasına imkan yaradır. Bu da müəllimin diqqətini daha çox mentorluq və fərdə istiqamətləndirməsinə kömək edə bilər.

Bununla yanaşı, elm aləmini düşündürən əsas suallardan biri plagiat və hazır cavab sindromudur. Yalnız süni intellekt əsaslı öyrənmə və yaxud tapşırıq hazırlama aludəçiliyi şagirdlərin analitik və tənqidi düşünmə bacarıqlarını zəiflədir".

### Tədqiqatlar göstərir ki...

Direktor deyir ki, Massaçusets Texnologiya İnstitutunun 2025-ci ildə apardığı tədqiqatlarda süni intellekt və şagird əlaqəsi ilə bağlı bir sıra məqamlar qeyd olunub. Belə ki, yalnız süni intellektdən istifadə edənlərin beyinlərində neyronların əlaqəsi minimuma enib. Bunun əksi olaraq süni intellektdən imtina etməklə tapşırıqlarını hazırlayan şagirdlərdə neyron əlaqəsi yüksək olmuşdur. Həmçinin biliklərindən istifadə etməklə süni intellektə konkret tapşırıqlar verən və onu yönləndirə bilən şagirdlər 2-ci nəticəni təkrarlamaqla yanaşı, vaxtlarına 60 faiz qənaət etmişlər. 1-ci qrupda vaxta qənaət 90 faiz olmuşdur, çünki onlar süni intellekti yöləndirməyə çalışmamışlar, sadəcə onun təqdim etdiyi "hazır məhsul"u yerinə yetirilmiş tapşırıq kimi müəllimə ötürmüşlər.

Tural müəllim qeyd edir ki, bu mövzuda araşdırmalar yenidir və insan davranışlarında, sonrakı qərar vermələrdə uzunmüddətli təsirini hələ ki ölçmək mümkün deyil. Bununla yanaşı, qısamüddətli qərarvermə davranışına dair müşahidələr göstərir ki, süni intellekt məktəbi tam əvəz edə bilməyəcəkdir.

Bu kimi texnologiyaların tətbiqində şagirdlərin yaş psixologiyaları, iradələrinin hələ tam formalaşmadığı nəzərə alınmalıdır. Süni intellektin müəllim nəzarəti olmadan yeganə öyrənmə vasitəsi kimi təqdim edilməsi bir sıra hallarda uşaqların mühakimə və analiz bacarıqlarını zəiflətməklə bərabər, həm lazımsız, zərərli, həm də düzgün olmayan məlumatlara çıxışına səbəb ola bilər".

Həmsöhbətimiz digər bir məsələnin süni intellektin emosional zəkanı əvəz edə bilməyəcəyi, lakin onu zəiflədə bilməsi riski ilə bağlı olduğunu deyir. Qeyd edir ki, emosional zəka-empatiya, sosial əlaqə və motivasiya təhsilin əsas komponentlərindəndir: "Araşdırmalar göstərir ki, müəllimlərin emosional dəstəyi şagirdlərin akademik nailiyyətlərinə və psixoloji rifahına birbaşa təsir edir. Məsələn, Harvard Universitetinin 75 illik "Xoşbəxtliyə təsir edən amillər" tədqiqatı göstərir ki, şagirdlərin akademik uğuru onların emosional təhlükəsizlik və müəllimlə əlaqə hissi ilə sıx bağlıdır. Süni intellekt isə empatiyanı yamsılaya bilsə də, real emosional qarşılıqlı təsir yarada bilmir. Stanford Universitinin tədqiqatları isə göstərir ki, əməkdaşlıq əsaslı öyrənmə modelləri şagirdlərin problem həlletmə və liderlik bacarıqlarını inkişaf etdirir. Bu bacarıqlar kollektiv və iyerarxik sinif mühiti müəllim-şagird münasibəti olmadan formalaşmır. Məktəb yalnız biliklərin ötürüldüyü məkan deyil. O, həm də sosiallaşma, etik davranış və kollektiv məsuliyyət mühitidir.

### Süni intellekt məktəb tədrisində dəstək mexanizmi kimi çıxış edə bilər

Müəllimlər şagirdin ailə, mədəni və sosial kontekstini nəzərə alaraq şagirdyönümlü tədris strategiyası qururlar. Süni intellekt isə universal modelə əsaslanır və mühit incəliklərini məhdud şəkildə dərk edir. Etik qərarvermə, sosial məsuliyyət və vətəndaşlıq şüuru müəllimin nümunəvi davranışı vasitəsilə formalaşır. Bu, texnologiyanın deyil, insan təcrübəsinin məhsuludur".

Direktor yekun olaraq deyir ki, süni intellekt orta məktəb tədrisində mühüm dəstək mexanizmi kimi çıxış edə bilər. O,fərdiləşdirilmiş öyrənmə və təhlil imkanları ilə tədrisin keyfiyyətini artırır. Lakin emosional zəka, sosial inkişaf və həyat bacarıqları kimi fundamental sahələrdə müəllimin rolu əvəzolunmazdır. Optimal model insanın və texnologiyanın rəqabəti deyil, inteqrasiyasıdır.




**Samirə KƏRİMOVA**

Paralimpiyaçı çempion



# "Müəllimlərimin motivasiyası ilə uğur qazanıram"

## Füzuli məktəblisi İlhamiz Kərimov

**"Əsas işim dərs oxumaq və idmanla məşğul olmaqdır. Məktəb müəllimləri də mənə kifayət qədər motivasiya verirlər, bu motivasiyadan ruhlanıram". Bu fikirlər Gürcüstanın paytaxtı Tbilisidə keçirilən parapauerliftinq üzrə Açıq Avropa çempionatında qızıl medal qazanan paralimpiyaçımız İlhamiz Kərimova məxsusdur.**

"Azərbaycan müəllimi" Füzuli məktəblisi, paralimpiyaçı İlhamiz Kərimovla həmsöhbət olub.

İ.Kərimov 2009-cu ildə Füzuli rayonunun Əhmədbəyli kəndində anadan olub. Hazırda Məhəmməd Əsədov adına Əhmədbəyli kənd tam orta ümumtəhsil məktəbinin 11-ci sinif şagirdidir.

İlhamiz hələ kiçik yaşlarından idmana maraq göstərir, hər gün idmanla məşğul olur. Əzmkarlıq və inamlılıq nümayiş etdirir. Yarışlara qatılır, birincilik qazanır. Onun idmanla bağlılığında doqquzqat Avropa çempionu Azərbaycan paracüdoçusu İlham Zəkiyevin də rolu olub.

"Bəlkə də 3 il əvvəl olar, tam yadımda deyil, İlham Zəkiyevlə tanış oldum. Məşqlərdə hər zaman dəstəyini göstərirdi. Yay tətilində məşqlər Sumqayıtda oldu. Qələbə qazanmaq ruhu ilə hazırlaşırdım yarışlara. Elə bu səbəbdən də qatıldığım bir çox idman yarışlarında yer tutmuşam".

Gənc idmançı 2024-cü ildə Uşaq Paralimpiya Oyunlarında ağırlıqqaldırma üzrə Azərbaycan çempionu adını qazanıb. 2025-ci ilin 5—19 oktyabr tarixlərində isə Misir Ərəb Respublikasının Qahirə şəhərində təşkil olunmuş parapauerliftinq idman növü üzrə Dünya çempionatında ağırlıq qaldırma idman növü üzrə 2-ci yerə çıxaraq gümüş medala sahib olub. Bu ilin mart ayında isə parapauerliftinq idman növü üzrə Açıq Avropa çempionatında qızıl medala layiq görülüb.



İlhamiz deyir ki, bu il orta məktəbdə həm də sonuncu ilidir, qarşıda imtahanları var. Əsas məşğuliyyəti idman və dərsləri olduğundan imtahanlara hazırlaşmaq üçün kifayət qədər vaxtı olur.

Qeyd edək ki, İlhamiz Kərimov (+107 kq, 16 yaş) Tbilisidə Açıq Avropa çempionatı statusu daşıyan yarışda ən yaxşı qaldırmada 115 kq, ümumi qaldırmada isə 330 kq göstərərək hər iki göstərici üzrə qızıl medal qazanıb.

**Rəmziyyə HƏSƏNOVA,**
**Qarabağ və Şərqi Zəngəzur üzrə regional təmsilçi**

**“AZƏRBAYCAN MÜƏLLİMİ”**

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar:** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1052, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan nəşriyyatı” MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya:** № 022327 **İndeks:** 0003

**Tiraj:** 17539 **Sifariş:** 453

**Məsul növbətçi:** S.Kərimova

# Naxçıvan məktəbliləri ölkə birincisi olub



**Bakı şəhərində 14 yaşadək oğlan və qız voleybolçular arasında Azərbaycan birinciliyi keçirilib.**

Yarışda Naxçıvan Muxtar Respublikası iki komandası ilə təmsil olunub və hər iki heyət uğurla çıxış edərək mükafat qazanıb.

14 yaşadək oğlanlardan ibarət “Naxçıvan” komandası bütün rəqiblərini məğlub edərək Azərbaycan birinciliyinin qalibi olub. Komanda 1/4 final mərhələsində “Şərqi Zəngəzur RVK” üzərində 2:0, yarımfinalda “Sumqayıt RVK” üzərində 2:0 hesablı qələbə qazanaraq finala yüksəlib. Həlledici görüşdə isə “Oğuz RVK” ilə üz-üzə gələn “Naxçıvan” komandası rəqibini 2:0 hesabı ilə məğlub edərək Azərbaycan birinciliyinin qalibi olub.

Naxçıvanı 14 yaşadək qız voleybolçular arasında təmsil edən “Möminə Xatun” komandası isə üçüncü yerə sahib çıxıb. Kollektiv üçüncülük uğrunda görüşdə “Şərqi Zəngəzur RVK” ilə qarşılaşıb. Gərgin və maraqlı keçən oyunda 2:1 hesablı qələbə qazanan Naxçıvan təmsilçiləri Azərbaycan birinciliyinin bürünc medalını qazanıblar.

**Aytən YUSİFOVA,**
**Naxçıvan Muxtar Respublikası üzrə təmsilçi**

# BMU tələbələri “RoboCode III” robotik kodlama yarışında qalib olublar

**Bakı Mühəndislik Universitetinin (BMU) tələbələri gənclər arasında təşkil olunan “RoboCode III” robotik kodlama düşərgəsində uğurla iştirak edərək qaliblər sırasında yer alıblar.**

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin “İnnovasiyalar Mərkəzi”, “Bilişim Vadisi” və “SAHA Robotics” şirkətinin birgə təşkilatçılığı, "Expressbank"ın sponsorluğu ilə həyata keçirilən düşərgə çərçivəsində iştirakçı komandalar müxtəlif innovativ prototiplər hazırlayıblar. Final mərhələsinə vəsiqə qazanan 5 komandanın layihəsi münsiflər heyəti tərəfindən qiymətləndirilib.

Yarışın nəticələrinə əsasən, BMU-nun İnformasiya və kompüter texnologiyaları fakültəsinin tələbələri Şahnabat Rüstəmova, Rəhman Cavziyev və Mühəndislik fakültəsinin tələbələri Ülvü Mahmudov, Nəzrin Həmidovadan ibarət komandanın yerinə yetirdiyi həll III yerə layiq görülüb.

Düşərgənin əsas məqsədi gənclərin robototexnika, avtomatlaşdırma və avtonom sistemlər sahəsində bilik və bacarıqlarını inkişaf etdirmək, onların “ROS” (Robot Operating System) ekosisteminə çıxışını asanlaşdırmaqdır. Bununla yanaşı, proqram çərçivəsində iştirakçıların innovativ layihələr üzərində işləməsinə dəstək göstərilməsi və bu sahədə karyera imkanlarının genişləndirilməsi də prioritet istiqamətlər sırasındadır.



# Etibarsız sayılır

**Masallı rayon** Kəlbəhüseynli kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Abışov Ramen Səfail oğluna verilmiş A-639690 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Salyan şəhər** 7 nömrəli texniki və təbiət fənləri təmayüllü liseyi 2015-ci ildə bitirmiş Vəlizadə Anar Emin oğluna verilmiş A-443216 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır

**Ordubad rayon** Kotam kənd tam orta məktəbi 2007-ci ildə bitirmiş Qarayev Elvin İslam oğluna verilmiş B-387146 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ucar rayon** Bərgüşad kənd 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2017-ci ildə bitirmiş Şükürova Zafta Mirağa qızına verilmiş E-050915 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Yolpaq kənd tam orta ümumtəhsil məktəbi 2007-ci ildə bitirmiş Həsənova (Əliyeva) Türkan Saləddin qızına verilmiş B-419626 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** I Sarıcalı kənd tam orta ümumtəhsil məktəbi 2008-ci ildə bitirmiş Rzayeva Şəlalə Şahmar qızına verilmiş B-524583 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Vərməziyar kənd tam orta məktəbi 2019-cu ildə bitirmiş Əsgərli Mustafa Niyaz oğluna verilmiş E-184672 nömrəli tam orta təhsil haqqnda attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Dəllər-Cəyir kənd tam orta ümumtəhsil məktəbi 1999-cu ildə bitirmiş Həsənova (Quliyeva) Fəxriyyə Şakir qızına verilmiş A-349582 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Çinarlı qəsəbə tam orta ümumtəhsil məktəbin IX sinfini 2002-ci ildə bitirmiş Feyzullayeva Zərnişan Məzahir qızına verilmiş 560237 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir Turizm Kolleci** tərəfindən 2006-cı ildə Verdiyev Cahangir Cavanşir oğluna verilmiş BB-II-041156 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti** nəzdində Bakı Texniki Kolleci tərəfindən 2013-cü ildə Məmmədli Şəfi Eldar oğluna verilmiş AA-035522 nömrəli subbakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2000-ci ildə Hüseynov Nazim Əli oğluna verilmiş A-031223 nömrəli bakalavr diplomu və diploma əlavə 2002-ci ildə verilmiş MNA-006705 nömrəli magistr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Yardımlı rayon** Hamarkənd kənd tam orta məktəbi 2019-cu ildə bitirmiş Qəhrəmanlı Elnur Fəxrəddin oğluna verilmiş E-256039 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə şəhər** 6 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Mikayılov Nicat Sevindik oğluna verilmiş A-370070 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi rayon** Hüsülü kənd tam orta məktəbin IX sinfini 2024-cü ildə bitirmiş Qəhrəmanova Şəhanə Elnur qızına verilmiş C-658446 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Qodman kənd tam orta məktəbin VIII sinfini 1991-ci ildə bitirmiş Quliyeva (Cahangirova) Atlaz Mürsəl qızına verilmiş A-901527 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayon** Mürsəlli kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2004-cü ildə bitirmiş Əhmədov Fəqan Rafiq oğluna verilmiş A-066929 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Gərənə kənd tam orta məktəbi 2013-cü ildə bitirmiş Ağayeva Nigar Rövşən qızına verilmiş A-236225 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qərb Universiteti** tərəfindən 2013-cü ildə Sadıxov Aydın Anar oğluna verilmiş A-004859 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti** tərəfindən 2015-ci ildə Hacıyeva (Ağayeva) Umnisə Namik qızına verilmiş A-062662 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** Məktəb-Lisey Kompleksin IX sinfini 2024-cü ildə bitirmiş Quliyev Rəhman Tural oğluna verilmiş C-882581 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dillər Universiteti** tərəfindən 2016-cı ildə Mirzəzadə Şakir Mirzəli oğluna verilmiş A-097507 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2007-ci ildə Mansurova Esmira Ömər qızına verilmiş B-081909 nömrəli bakalavr diplomu və diploma əlavə və 2009-cu ildə verilmiş MNB-018051 nömrəli fərqlənmə magistr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 154 nömrəli tam orta məktəbin gecə sinfini 1995-ci ildə bitirmiş Nəbiyeva (Kazımova) Nəcibə Allaz qızına verilmiş A-069524 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şabran şəhər** 1 nömrəli tam orta məktəbi 1980-ci ildə bitirmiş Teymurov İbrahim Əlibala oğluna verilmiş 373602 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Milli Aviasiya Akademiyası** tərəfindən 2005-ci ildə Xəlilov Ramil Akif oğluna verilmiş BB-I-002180 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 269 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Kərimov Rüfət Niyaz oğluna verilmiş A-723909 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi Pedaqoji Kolleci** tərəfindən 2015-ci ildə Muradova Ləman Mübariz qızına verilmiş AA-067262 nömrəli subbakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** İlyas Əfəndiyev adına Elitar Gimnaziyanı 2016-cı ildə bitirmiş Məmmədov Elmir Zeynal oğluna verilmiş A-496558 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dillər Universiteti** tərəfindən 2016-cı ildə Salamova Ülkər Natiq qızına verilmiş A-082611 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Salyan rayon** Kür Qaraqaşlı kənd tam orta ümumtəhsil məktəbi 1997-ci ildə bitirmiş Əliyeva (Bağırova) Ülkər Bəxtiyar qızına verilmiş 250152 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə şəhər** 2 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Qəribova Gültəkin Qələndər qızına verilmiş A-058272 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Mühəndislik Universiteti** tərəfindən 2021-ci ildə Səmədova Şəfa Namiq qızına verilmiş C-090645 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 254 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2002-ci ildə bitirimiş Cümşüdova (Əhmədova) Bənövşə Arif qızına verilmiş B-510234 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 242 nömrəli tam orta ümumtəhsil məktəbi 2025-ci ildə bitirmiş Novruzova Səkinə Vüqar qızına verilmiş E-763216 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 157 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Qarani-zadə Amil Həsən oğluna verilmiş B-315725 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi rayon** Rəncbərlər kənd tam orta ümumtəhsil məktəbi 1987-ci ildə bitirmiş Məhərrəmova (Əliyeva) Pəri Yusif qızına verilmiş 369683 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad şəhər** 7 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Dadaşova Lamiyə Əli qızına verilmiş E-315177 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ucar rayon** Bağman kənd tam orta ümumtəhsil məktəbin VIII sinfini 1983-cü ildə bitirmiş Kərimov İlqar Soltan oğluna verilmiş 500479 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Xırdalan şəhər 5 nömrəli tam orta məktəbi 2023-cü ildə bitirmiş Alıyeva Aytac Asif qızına verilmiş E-619431 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2016-cı ildə Həsənəliyev Elçin Cəfər oğluna verilmiş A-104084 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 135 nömrəli tam orta məktəbi 1990-cı ildə bitirmiş Mustafayev Murad Qazı oğluna verilmiş A-122246 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 21 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2011-ci ildə bitirmiş Ağazadə Şəbnəm Saleh qızına verilmiş A-092786 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 18 nömrəli təbiət və humanitar təmayüllü məktəb-liseyi 2025-ci ildə bitirmiş Başirov Nihad Zəka oğluna verilmiş E-834806 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.